

## Qərib Mehdi

# Ən alçaq adam



**(hekayə)**

**(əvvəli ötən sayımızda)**

***– Yaxşı ki, özünü itirdin... – sözünün arxasını gətirmədi. Demək istəyirdi ki, «sən itirdiyinimən tapdım». Sözünü zorla saxladı. Nə qədər təcrübəsiz olsa da, hiss edirdi ki, ilk addımdankatibəyə təslim olmaq ziyan gətirər.***

***Lalə xanım bayaq əlini işə salmışdı, indi isə dilini işə saldı:***

***– İlk iş gününüz mübarək olsun! Əminəm ki, sizin ayağınız İnstitutumuz üçün sayalı olacaq.Hamı sizin rəhbərliyinizdən razı qalacaq, bəhrələnəcək.***

***Fərəməz Fərmanoviç sözünə etik qaydalara əməl etməkdən başladı:***

***– Xoş sözlərə görə təşəkkür edirəm. Mənim sevimli və sədaqətli katibəmin adı nədir?***

***– Lalə. Xətrimi istəyənər «Lalıçka» da deyirlər.***

***Təzə rəhbər:***

***– Lalıçka!.. Səslənişi gözəldir. Bundan sonra yaxınlıq əlaməti olaraq mən də sizə buəzizləyici deyimlə müraciət edəcəyəm.***

Yer kürəsi öz oxu ətrafında; müdirlər, rəislər, direktorlar isə katibələrinin ətrafındafırlanırlar. Onlar çox görüb, çox götürüblər. Katibəyə arxalanmayan rəhbərin arxası yerə tez gələr.Çünki, onlar əmrlənməmiş, imzalanmamış vəzifələrin daşıyıcılarıdır. Vaxtilə deyilmiş bu tapmacaindi onları ehtiva edir: «Bir balaca boyu var; Dam dolusu toyu var». İcra sirlərini sabaha saxlamaqolmazdı. O, katibənin kimliyini vaxtında təzə rəhbərinə anlatmalıydı. Başladı:

– Fərəməz Fərmanoviç, o kresloda siz necə də əzəmətli görünürsünüz! – yeni rəhbərin boyməsələsi bir azdan gündəmi zəbt edəcəkdi. Rəhbərini qorumaq üçün gizli söz-söhbətə qarşı birincio, çılpaq sinəsini irəli verməliydi. Həm də bu xidməti gözə soxmadan ağasına anlatmalıydı. Mənasısonradan rəhbərinə agah olanda əli möhürlü kişi katibəsinin fədakar gedişlərini heyranlıqladuymalıydı. «Gödək» sözünü dilə gətirəni kötək gözləyəcəkdi. Bunu hamı bilməliydi. O, şeytanıqəlbindən qovan kimi «gödək» ayamasını yaddaşından qovaraq dedi:

– Kreslonun orta dirəyi vintlidir. Siz onu hərəkətə gətirib oturacağı bir hündürlük etsəniz,məqsədəuyğun olar. Bunun özəl mənası var. Siz işçilərinizlə üzbəüz olanda onlar alçaqdaqərarlaşacaq. Onlar aşağıda, siz yuxarıda! Sanki siz kosmos yüksəkliyindən yerdəki – aşağıdakıkiçikləri idarə edirsiniz.

Fərəməz Fərmanoviç katibəsinin idarəçilik elminə söykənən fantaziyasına heyranlığınıgizlətmədi:

– Sən lap filosof kimi danışırsan! Dediklərindən çox şey öyrənmək olar. Əhsən!

– Bəs necə?! – deyə katibə təsdiqlənməmiş vəzifələrinin izahına keçdi. – Mənim sizə necəvacib xətlə bağlı olacağımı bilirsinizmi? Bəlkə də, hə, bəlkə də, yox. İlk baxışda katibə çayxidmətilə müşayiət olunan, qəbul otağının «olar-olmaz» deyimli keşikçisi kimi nəzərə gələn çevik,ayıq bir işçidir. Burası doğru. Ancaq dərinə varanda onun şaxəli xidmətinin şahidi olursan. Belə ki...

***Lalıçka xanım burada sözünü saxladı. Ani daxili məsləhətləşmədən sonra bugünkü söhbətinəxitam verdi:***

***– Bu günlük bəsdir. Söhbətimizin mabədini sabah davam etdirərik. Bundan sonra biz biryerdəyik. Gecikməyə ehtiyac olmadığı kimi, tələsməyə də ehtiyac yoxdur. İndi kollektivlə bağlıcari tapşırıqlarınızı yerinə yetirməyə hazıram.***

Rəhbər hələlik təklikdə (-katibədən başqa) heç kimi qəbul etməmişdi. Sözünü ümumi görüşdədə deyə bilərdi. Tapşırığa əsasən, işçilər iclas zalına toplaşdılar. İşçilər aşağıda, rəhbər yuxarıdayerini tutdu. Özü özünə söz verdi. Qarşıdakı həftələrdə, aylarda kollektivin görəcəyi işləri açıqladı.Nitqi nikbin ruhlu idi. Bu səbəbdən çıxışı dəfələrlə alqışlandı. Sonda əsl mətləbə gəldi:

– Şöbə müdirləri vəzifədən azadolma barədə ərizələrini təqdim etsinlər. Mən rəhbər olaraqöz komandamı müəyyənləşdirməliyəm. Rəhbər heyətdə kiminlə işləmək məsələsi vacib şərtdir.Bilirsiniz ki, əsl uğur kadrların düzgün seçilməsindən asılıdır.

Orta çəkili rəhbərlər bu həyəcanlı anı intizarla gözləyirdilər. İntizar sona yetdi. Şairdemişkən «kim qalar, kim gedər, o bəxtə-bəxtdir». Vəzifədən azadolma ərizələri yazılıb rəhbərliyəötürüldü. Kiçik kreslolar böyük kreslonun hüzurunda idi. Görək, qərar necə qəbul olunacaqdı?..

Hələ katibə – müdir məsələsi yetərincə çözülməmişdi. Fərmanoviçdə astagəllik hiss olunsada, Lalıçka tələsirdi. O, çox karvanlara sarbanlıq eləmişdi. Katibə vəzifəsi çoxpilləli kadrşəbəkəsinin açarı sayılırdı. İdarəni sanballı bir kitaba bənzətmək mümkün olsaydı, katibə vəzifəsinonrakı mətləblərdən xəbər verən giriş fəsli sayıla bilərdi. Bu vəzifənin daha bir bənzəri vardı:arxası gen butulkanın dar boğazı. Daxil olan da, çıxıb canını qurtaran da darlıqdan keçməkməcburiyyətindəydi. Rəsmiləşməyən işlər gizli saxlanılırdı. Lalıçka bunları sonra rəhbərininqulağına pıçıldayacaqdı. Hələlik olanı yaxına çəkmək məsələsi müsbət həllini gözləyirdi.

Lalıçka hissolunmaz təşviş içindəydi. İdarənin birinci siması – hökmlü kreslo sahibiniözəlləşdirmək problemini gecikdirə bilməzdi. Nə çoxdur bədən mətahını peşkəş kimi gəzdirəngözəgirən gözəllərg Onun gecikməyə ixtiyarı yox idi. O, «halal» qismətini haramzadələrəgüzəştə gedə bilməzdi. Üçüncü gün bu məsələ legitimliyini tapdı. Rəhbər bundan sonra əmin-arxayın islahata başlaya bilərdi. Lalıçka bu «qəfil» görüşü də ustalığının hesabına uğurla başaçatdırdı. Necə?

***Üçüncü gün katibə rəhbərinə daha yaxın gəlib ehtiras saçan baxışlarını ona dikdi və astadanpıçıldadı:***

***– Vacib saydığım bir neçə məsələni vaxtında sizə deməliyəm.***

***Onun niyyətindən bir şey kəsdirə bilmyən rəhbər kreslonun qucağını tərk etmədən dedi:***

***– Buyurun.***

***Lalıçka bir az da rəhbərinə doğru əyilib qulağına pıçıldadı:***

***– Yəqin bilərsiniz ki, sizin təhlükəsizliyinizin qarantı ancaq mən olaram. Qəbul etsəniz, mənsizin həm cangüdəniniz, həm də canbədəniniz olmağa hazıram. Əgər qəbul etsənizg Ancaq o haldasiz məğlubedilməz olacaqsınız. Unutmayın ki, məndən fərqli olaraq, başqalarını sizin oturduğunuzkresloya necə sahiblənmək düşündürür.***

Qadının təmasa can atması Fərəməz müəllimin var bədənini oyatmışdı. Lalıçkanın isti nəfəsionun boyun-boğazında dolaşırdı. Kişi bu isti təmasdan yan durmaq iqtidarında deyildi. Əksinə,getdikcə oda-alova bürünüb alışıb yanırdı. Direktor birdən katibəsinə sarılıb onu öpüşlərə qərqətməyə başladı. Lalıçka vüsal dəminin yetişdiyini yəqinləşdirdi. Can atdığı bu fürsəti əldən verəbilməzdi:

– Görürəm, erkəkliyiniz kükrəyib. Sakitləşmək istəyirsinizsə, kabinetin arxa otağına keçəbilərik.

Təklif, iradəsilə bacarmayan rəhbərin ürəyindən xəbər verdi. Onlar dincəliş adına təsisolunmuş arxa otağa keçdilər, çox çəkmədi ki, vüsala yetdilər. Beləliklə, iki tərəfin arzusu ilə«məhəbbət magistralı» istifadəyə verildi.

***

Fərəməz Fərmanoviç komandasının təşkili işinə girişdi. Direktor müavini və şöbəmüdirlərini bir-bir qəbul edib ətraflı söhbət edəcəkdi. Məsələ işçilərin qabiliyyətindən çox rəhbərəmünasibət – şəxsi sədaqət üstündə qurulacaqdı.

«Əvvəlcə məscidin içi» deyiblər. «Azərbaycan folkloru» şöbəsinin müdiri doğmalığına görəmüavin mərtəbəsinə qədər irəli çəkilmişdi. O, həm də şöbənin müdirliyini də özündə saxlamışdı.İndi həyəcan içində çırpınırdı. Heç olmasa iki vəzifədən birini saxlaya biləydi. Bu mürəkkəb məsələtəşkilatçılıq, elmi axtarışların səmərəli nəticələrindən çox, rəhbərin rəğbətini qazanmaqdan asılıydı.Təzə direktor ona öz adamı kimi etibar etməliydi. Nəyin bahasına olursa-olsun, o, buna nailolmalıydı.

«Qərbi Avropa» şöbəsinin müvəqqəti icraçı müdiri də havadan asılı vəziyyətindəydi. Onuqınamaq olmazdı. Ərizəsi alınmış vəzifəlinin halı necə olmalıydı?.. Yaxşı bilirdi ki, təzə rəhbərəyaxınlıq uğrunda kəskin yarış gedəcəkdi. Kim onun ürəyində tutduğu kimi hərəkət edəcəkdisə, o davurub aradan çıxacaqdı.

«Türk imperatorluqları» şöbəsinin «talağı geri oxunmuş» müdiri (daha doğrusu, keçmişmüdiri) nə nədər çalışırdısa, pəjmürdə halını gizlədə bilmirdi. Kiçik kresloda oturanda yuxusunaböyük kreslo girirdi. İndi kiçik kreslonu da altından çəkmişdilər. Rəhbərin rəğbətini qazanmaqgBudur qarşıda duran ümdə məsələ!

«Orta Şərq» şöbəsinin istefa ərizəsi yazmağa məcbur edilmiş eks-müdiri Hindistan kəşfinəçıxmış səyyahlar kimi çıxış yollarını aramaqdan üzülmüşdü. Necə eləsin ki, bu mənfur «eks»likdənyaxa qurtarsın. Əlbəttə, rəhbərə rəğbəti şəxsi sədaqət səviyyəsinə yüksəltməlidir. Kim onun ürəyinioxuya biləcəksə, tələb olunanları həyata keçirməyə hazır olacaqsa, o da vuracaqdır.

***Fərəməz Fərmanoviç Lalə xanımın bir saat bundan əvvəl dediyi fəaliyyət proqramlı sözlərinixatırladı: «Arxanızdan ehtiyatlanmayın. Arxanızda mən dayanmışam. Siz qarşı tərəfdən gələnlərinqürurunu qırın! Ədalətin səsinə qulaq asmaq, rəqibinə rəhmdillilik göstərmək qələbəyə mane olur.Rəqibinizə həmişə haqlı olduğunuzu qəbul etdirməlisiniz. Onda rəqibin gözündə alçaq dağlar uca –aşılmaz görünəcəkdir». İndi filosof katibənin «döyüş təlimindən» sonra mübarizəyə başlamaqolardı. «Məni kimə oxşatmaq, kimlə müqayisə etmək olar?» sualının cavabını vəzifə imtahanıverənlərin hər birindən soruşmaq lazım gələcəkdi.***

***

**(ardı gələn sayımızda)**